# "Mən bu cahana sığmazam"...

**Şəhid atası və şəhid qardaşı, milli qeyrət simvolu Hacı Tofiq Hüseynova ithaf edirəm**



Onunla son söhbətdə
Bütün fikirlərimi
Demişəm, bölüşmüşəm,
İndi yenə sözüm var
Deməsəm dözəmmərəm...

Naxçıvanın şərqini
Erməni işğalından
Qoruyub-saxlayan
Soyuq dağındakı
Hərbi hissəmiz olub.

Son 35 ildə
Bu hərbi hissə
Bütün Gənzəlilərin
Öz əziz evi olub
Xidmət edən əsgərlər
Hər bir ailənin
Doğma balası olub.

Payızında, qışında,
Yazında və yayında
Tufanda və şaxtada
Hərbi maşınlar aşıb
Dağ başından uçanda
Çovğun qanı qaldınb
Əsgər və zabitləri
Kırs altına basanda
Başının üstün kəsən
Gənzə kənd əhli olub
Hamı səfərbər olub
Başında da dayanan
Nə boran, nə şaxtadan
Qaranlıqdan, dumandan,
Heç nədən də qorxmayan
Gedib axtarıb tapan
Qar altından çıxaran
Çiynində də aparan
Oğlunu qurban verən
İgid şəhid atası
Mənim dostum-qardaşım
Hacı Tahir olubdur,
Uzun illər bayramları,
Xoş günləri əsgərlərlə
Bir keçirən Hacı Tofiq,
Gənzəlilər olubdur,

Bütün bunlarla belə
Onların həyatında
Ağır günləri olub...
Birinci müharibədə
Tərtər, Talış uğrunda
Qanlı döyüşlərdə
Tahir əminin oğlu
Ceyhun şəhid olubdur.

Gənzə kənd tarixində
Zəhmətilə ucalan
Müsibətlər yaşayan
Əyilməyən, sınmayan
Silinməz izlər qoyan
Heç vaxt yaddan çıxmayan
İkinci şəhid verən
Bu ailə olubdur.

Hacı Tahir əmi də
Nəvələrin böyüyü
Hacı Tofiqin isə
Birinci və ilk oğlu
İkinci Ceyhun olub.

Ceyhun dünyaya gəldi
Hər yerə nur çiləndi
Xeyir - bərəkət gəldi
Bütün işlər düzəldi.

Hələ körpə olanda
Başqa uşaqlardan
Sual - cavablarılə
Tamam seçilirdi.

Məktəb illəri gəldi
Orta təhsilini
Ən yüksək savad verən
Zərifə litseyində
Qızıl medal alaraq
Oxuyub, başa vurdu.

Ali təhsil üçün
Hər yerdə ad çıxaran
Seçilən və sayılan
Yüksək reytinqə malik
Azərbaycan təhsilin
Dünyaya tanıdan
Elm, təhsil məbədi
İşıqlı universitetə
627 balla
ADA-ya daxil oldu.

Azərbaycanın fəxri
Böyük diplomatımız
Professor-doktor
Hafiz Paşayevin
Məktəbini keçəcək
Hörmətini qazanıb
Dimlomat diplomilə
Gələcəyə yollandı.

Dünya elminin
Müasir texnikanın
Güclü diplomatiyanın
Ən tanınan mərkəzi
Təl-Əviv universitetində
Diplomat ixtisası ilə
Magistr dərəcəsi aldı.

Mübadilə proqramı
Müsabiqə keçməklə
Daha çox sevdiyi
Gündoğan Yaponyada
Beynəlxalq sertifikat
Şərəfli qızıl-gümüş
Medalların almaqla
Yüksək adlar qazandı.

Doktorantura üçün
Brüselli seçmişdi
Tələblər ödənilmiş
Sənədlər hazır idi
Gedib başa çatdırmaq
Tanınmış alim olmaq
Əsas məqsədi idi.

Öz qəlbinin hökmilə
Bunların hamısını
Bir kənara qoyaraq
Əsgərlik yolun seçdi.

Ceyhuna deyəndə
Hara tələsirsən ki,
Doktonanturanı bitir
Hər bir məqama yetiş
Həqiqi hərbi xidmətə
Ondan sonra gedərsən.
Ceynunun atası
Hacı Tofiq dedi ki
Sənin hüququn vardır
Yarımçıq qalmamaq üçün
Bəlkə gözləyəsən
İşlərini bitirib
Sonra əsgər gedərsən.

Ceyhun cavab verdi ki,
"Yox-yox" - mən getməliyəm
Dövlətim qarşısında
Borcumu verməliyəm
Sonra birdən gec olar
Ürəyimdə xal qalar
Vətənə borcum qalar.

Anası Mədinə xanım:
Mənim balam heç kimdən
Nə artıq, nə əksikdir
Artıq vaxtı çatıbdır

Borcu orduya gedib
Vətəni qorumaqdır.
Belə bir uca ana
Vətən analarının
Simvoluna çevrilib
Tarixə adın yazan
Haqqında romanlar
Dastanlar yazılacaq
İgid şəhid anası
Mədinə xanım oldu.

Hacı Tahir əmiylə
Səhrayə xanımın
Verdikləri tərbiyə
Belə öyüd-nəsihət
Bütün uşaqlarının
Həyat kodeksi olub.

Ceyhun gözün açanda
Ətrafına baxanda
Eşitdiyi, gördüyü
Vətən, torpaq, bir də ki
Ordu, əsgər olubdur
Bütün bunlar toplanıb
Beyninə həkk olubdur.

Oxuduğu kitablar
Baxdığı kinolar
Dünyanın hər yerində
Gördüyü muzeylər
Tarixi qəhrəmanlar
Yer üzündən silinən
Ağdamın, Xocalının
Füzuli, Zəngilanın
Laçının, Qubadlının
Kəlbəcər, Cəbrayılın
Şuşanın - Qarabağın
Ana - bacı fəryadı
Uşaqların ah-vayı
Şəhidlərin harayı
Ailələr dastanı
Qəlbində yuxa salıb
Onu didib-dağıdıb.

Erməni vandallığı
Xocalı qətliamı
Günahsız qocaların
Körpəli anaların
Məsum uşaqların
Nakam əsgərlərin
Amansız qətlləri
Talan olan, dağılan
Şəhərlər və kəndlər
Yandırılan evlər
Şümlanan məzarlıqlar
Qəlbini göynədirdi
Ürəyini deşirdi
Heç cür yeyə bilmirdi.



Arzuya çatmış kimi
Ürəyinin hökmüylə
Çox sevinclə, həvəslə
Durub xidmətə getdi.
Yaxşı qulluq edirdi
Vaxtının bitməsinə
Bir aydan az qalırdı
Əmisi Ceyhun kimi
Xain ermənininin
Gülləsinə tuş gəldi
Taleyi daşa dəydi.

Yurdumu, torpağımı
Dövləti, bayrağını
Vətənin namusunu
Hər bir şeydən:
Var-dövlətdən
Həyatın ləzzətindən
Dünyanın cənnətindən
Ata-ana eşqindən
Daha yüksəkdə tutan
Təkcə Ceyhun olubdur.

Azərbaycanın heç yerində
Görünməyən, rast gəlməyən,
Ancaq Gənzə kəndinin
Hüseynlər ailəsində
Eyni adda iki şəhid
Soy adı da eyni olan
Qara şəhidi vardır.
Birincisi Ceyhun Hüseyn
İkincisi yenə Ceyhun Hüseyn
Biri Tahir oğludur
O biri Tofiq oğlu
Biri əmi Ceyhundur
Tərtər şəhididir
O biri qardaşoğlu
Sədərək şəhididir.

Hər iki şəhidin də
Müqəddəs məzarları
Eyni yurdda, eyni kənddə
Ordubadda, Gənzədədir,
Mərd igidlər, qeyrətlilər
Anası ilə vətənini eyni bilən
Əsgərlərin qədrin bilən
Doğma kəndi, bu kənddədir,
Gənzədədir, Gənzədədir.

Hər şeyi bildiyindən
Ceyhun düşüncələri
Bu cahana sığmırdı
Beyninin alt qatında
Formalaşan fikirlər
Dünyaya sığışmırdı.

Ulu Nəsimi deyir:
"Məndə səğar iki cahan,
Mən bu cahana cığmazam,
Gövhəri-Laməkan mənəm,
Könvü məkana sığmazam
Tor mənəm, kaman mənəm,
Pir mənəm, cavan mənəm
Ayinədana sığmazam"...

Ona görə delə deyir
Onun ağlı, onun beyni
Gördükləri, bildikləri,
Bu dünyaya sığa bilmir
O dünyaya sığınacaq
Özünə də yer tutacaq
Bu dünyalıq adam deyil
O dünmyada yaşayacaq.

Şəhidlərin şücaəti, mətanəti,
Bu dünyada abidələr
Daim axan bulaqlarda
Əzəmətli heykəllərdə
Bütün xalqa-cavanlara, əsgərlərə
Qürur verən and yeri tək
Bayramlarda, şənliklərdə
Toy qabağı tədbirlərdə
Görüş yeri, təzim yeri
Gülüstana, Gülhanəyə çevriləcək
Bu dünyada yaşayacaq
Əminəm ki əbədi də ucalacaq...

Sevərək ananı, vətənini
Bu dünyaya gəlmişdin.
Ananla vətənindən
Sevilərək getmisən
Çox az yaşasan da
Tarixlərə düşmüsən
Heç vaxt ölməmisən
Daimi, əbədisən
Həmişə bizimləsən...
Yenə də bizimləsən...
Yenə də bizimləsən...

***Şəhid Ceyhun Tofiq oğlu Hüseynovun vəfatının birinci ildönümündə...***
***Gəncə-Bakı***
***9 iyun 2025-ci il***



Hacı Müzəffər Məmmədov,
*Professor-doktor*